# "Azərbaycandakı son struktur və kadr dəyişiklikləri günümüzün tələbidir"

## Adil Əliyev: Kiqboksinq Federasiyası olaraq, dövlət başçısının idman sahəsində bütün tapşırıqlarını icra etməyə çalışırıq

**Müsahibimiz 20 saylı Nərimanov ikinci seçki dairəsindən qalib gəlmiş millət vəkili, hüquq elmləri üzrə fəlsəfə doktoru Adil Əliyevdir. Xatırladaq ki, A.Əliyev həm də Azərbaycan Kiqboksinq Federasiyasının prezidentidir.**



**- Adil müəllim, əvvəlcə ölkəmizdə son dövrlərdə start verilmiş kadr və struktur dəyişikliklərinə sizin münasibətinizi bilmək istərdik.**

- Bu gün ölkəmizdə baş verən islahatlar prosesi, əminəm ki, günümüzün tələbidir və Azərbaycan cəmiyyətinin ictimai və sosial sifarişi kimi qəbul edilməlidir. Ölkəmizdə bu gün öz həllini gözləyən problemlərin mövcud olduğu fəaliyyət sferaları kifayət qədərdir. Cənab Prezident İlham Əliyevin qeyd etdiyi kimi, hər bir iqtidarın idarəetmə forması müasir dövrün tələbləri və standartlarına tam şəkildə cavab verməlidir.

**- Dövlətimizin idarə olunmasında gəncləşmə siyasətinə münasibətiniz necədir?**

- Bu çox vacib məsələdir. Gənclər bizim sabahımızdır. Hər bir xalqın, millətin dünya miqyasında tanıdılmasında gəncliyin böyük rolu var. İstedadlı gənc kadrlarımız və sağlam intellektual potensialımız olduğu halda, nə üçün bu potensialdan tam şəkildə istifadə etməyək?!

**- Gənclərə nə vəd edirsiniz?**

- Mən vəd verməyi yox, iş görməyi daha önəmli hesab edirəm. Ancaq gənclərimizə tövsiyəm var: öz inkişafımda və görəcəyim işlərdə fəaliyyətim onlar üçün kifayət qədər şəffaf olacaq. Bəzən elə olur ki, bir sıra idmançılar nəzər-diqqətdən yayınır, arzuolunmaz istiqamətlərə və fəaliyyət sahələrinə üz tuturlar. Gənclər və idman siyasəti üzərində ictimai nəzarəti vəziyyətdən ən optimal çıxış yolu hesab edirəm.

**- Kiqboksinq idman növünün hansı özəllikləri var?**

- Aktiv ictimai arenaya atılmaq niyyətim gənc dövrlərdən başlayıbr. Özümü böyük idmanda sınamaq fikri uzun illərdir ki, mənimlədir. Özüm kiqboksinq üzrə veteranlar arasında dünya çempionu olmuşam. İndi bu ideyanı gənclər arasında reallaşdırmaq vaxtıdır. Azərbaycanda kiqboksinq idman növü digər idman növləri kimi köklü islahatlar tələb edir. Bu nöqteyi-nəzərdən, peşəkarlıq hər zaman öndə olmalıdır. Bu idman növü fəlsəfə ilə də uzlaşır, idmançıdan müəyyən bacarıq və səriştə tələb edən unikal bir idman növünə çevrilməkdədir.

Bu idman növünün tarixi kökləri və bünövrəsi Çin fəlsəfəsi ilə bağlıdır. Ölkəmizdə mütəmadi olaraq milli çempionatlar keçirilir, beynəlxalq arenada isə idmançılarımız Azərbaycan bayrağını dəfələrlə zirvələrə qaldırıb. Bir sıra dövlət strukturları bizim Federasiya ilə əməkdaşlıq edir, müştərək təlimlər keçirirlər. Belə tədbirlər gənclərin vətənpərvər ruhda, şəxsiyyət kimi formalaşmasında da xüsusi rola malikdir.

Bildiyiniz kimi, ərazilərimizin 20%-i işğal altındadır. Bu nöqteyi-nəzərdən də bizim Federasiyanın gənclərin həm fiziki, həm də psixoloji cəhətdən hazırlığında özünəməxsus missiyası var. Bu idman növünün hərbi aspekti ilə yanaşı, onun ətraf mühit və sağlam həyat tərzi ilə də sıx əlaqəsi mövcuddur. Elə hallar olur ki, bu idman növünə yalnız idmançılar deyil, həm də bütöv ailələr qoşulur. Bu idman növünü həm yaşlılar, həm də gənc nəsil çox sevir. Təbiətin qoynunda idmanla məşğul olmaq tarix boyu bir çox insanların arzusu olub.

Biz respublikamızın bir çox guşələrində turnirlər keçiririk. Mən gənclərimizi yalnız bizim idman növünə deyil, ümumiyyətlə idmana dəvət edirəm. Çünki sağlam nəslin böyüdülməsi və həddi-buluğa çatdırılması bizim fəaliyyətimizin əsas məqsədi və bizlərin hər birinin arzusu olmalıdır.

Söhbətimizin bu yerində Adil müəllimin köməkçisi söhbətə müdaxilə edərək məlumat verir:

"Federasiyamız indiyə qədər bir sıra beynəlxalq tərəfdaş qurumlarla əməkdaşlıq əlaqələri qurub. Müxtəlif illərdə bizim tədbirlərimizdə Gənclər və İdman Nazirliyinin, Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasının, Bakı Dövlət Universitetinin komandaları iştirak edib. Biz "İRƏLİ" İctimai Birliyi və digər QHT-lərlə yaxın əlaqələr qurmuşuq. "Qızıl əlcək" yarışlarımızda hər zaman əcnəbi idmançılar da çıxış etmək imkanı qazanıblar. Regional idman klublarımız da geniş tərkibdə bu tədbirlərdə iştirak edib. Hər il bizim Federasiyanın təşkil etdiyi idman yarışlarına minə qədər iştirakçı qoşulur. İldən-ilə xaricdən də bu yarışlarda iştirak edən idmançıların sayı artır".

**- Azərbaycan idmanının beynəlxalq arenadakı durumunu necə dəyərləndirərdiniz?**

- Azərbaycanda idman ənənələri qədim tarixə malikdir. Müasir dövrümüzün idman uğurları Ümummilli Lider Heydər Əliyevin və Prezident İlham Əliyevin adları ilə sıx bağlıdır. Azərbaycanda istedadlı və titullu idmançıların yetişdirilməsi üçün demək olar ki, bütün şərait mövcuddur. Ölkəmiz dünya çaplı idman tədbirlərinə 1-ci Avropa İdman Oyunları - 2015, 4-cü İslam Həmrəyliyi Oyunları - 2017, Formula-1 və digər böyük idman yarışlarına ev sahibliyi edib. Bildiyiniz kimi, 2020-ci ildə futbol üzrə Avropa çempionatının final mərhələsinin 3 matçı Bakı Olimpiya Stadionunda keçiriləcək. Təbii ki, biz bir idman federasiyası olaraq bu tempə layiq olmağa və dövlət başçımızın idman sahəsində bütün tapşırıq və hədəflərini icra etməyə çalışırıq.

**Fuad**